AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI

*Əlyazması hüququnda*

**RAUF BƏHRAM oğlu BƏHMƏNLİ**

# AZƏRBAYCAN XALQ RƏQSLƏRİNİN RİTMİK XÜSUSİYYƏTLƏRİ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2018**

*Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Azərbaycan ənənəvi musiqi və müasir texnologiyalar” kafedrasında yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Gülnaz Abutalıb qızı Abdullazadə**<br>Azərbaycan Respublikasının<br>Əməkdar incəsənət xadimi,<br>fəlsəfə elmləri doktoru, professor |
| **Rəsmi opponentlər:** | **İradə Tofiq qızı Köçərli**<br>sənətşünaslıq üzrə elmlər doktoru, professor<br><br>**Akif Nüsrət oğlu Quliyev**<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor |
| **Aparıcı təşkilat:** | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. “Musiqi tarixi və nəzəriyyəsi” kafedrası |

Müdafiə ____ oktyabr 2018-ci ildə saat 12:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küçəsi, 98

Dissertasiya işi ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Kitabxanasında tanış olmaq olar.

Avtoreferat _____ sentyabr 2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının Elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent: **H.V.Məmmədova**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan xalq oyun havalarının dərindən öyrənilməsi, geniş şəkildə araşdırılması, tədqiq olunması musiqişünaslığın, ümumiyyətlə, rəqs sənətinin əsas, vacib məsələlərindəndir. Folklor musiqisinin çox geniş bölmələrindən biri sayılan xalq rəqslərimizin ritmik xüsusiyyətləri baxımından öyrənilməsi belə aktual problemlərdən sayılır. Bu baxımdan təqdim etdiyimiz tədqiqat işində bir çox aktual mövzulara toxunulmuş və onların əhatəli təhlili aparılmışdır.

Xalq rəqslərinin (başqa sözlə, oyun havalarının) ritmik xüsusiyyətlərindən bəhs edərkən, ilk növbədə folklor musiqi janrlarımızın (mahnı, rəqs, rəng, təsnif) müşayiətində istifadə olunan Azərbaycan ritmlərini xüsusilə qeyd etməliyik. Hər bir xalqın folklor musiqisində onun özünəməxsus ritmləri mövcuddur. Məsələn, Misir musiqisində “haqalla”, “karatçi”, “maqsum”, “tayer”, “zaffa”, Ərəb xalq musiqisində “ayoub”, “beledi”, “malfuf”, “samai”, “bayou”, “masmoudi”, “saidi”, “sombati”, Afrika folklor musiqisində “zar”, “bambi”, “fallahi”, “lolo”, “fanga”, “qavazi”, “piqme”, Türk musiqisində “çifteteli”, “karşılama”, “romani”, “barifşahn”, “tek vuruş”, “nim hafif” və s. ritmlərindən hər zaman istifadə olunur. Azərbaycan xalq musiqisinin də özünəməxsus ritmləri var ki, bu haqda dissertasiya işində geniş məlumat verilmiş, “ardıcıl”, “atlama”, “yallı”, “qaytağı”, “tərs” və “qazağı” ritmlərinin adı, yaranma və ifadə üsulları, quruluş tərkibi əhatəli şəkildə təhlil edilmişdir.

Tədqiqat işinin ayrıca bir bölməsində müxtəlif ölçülü, rəngarəng melodik məzmuna malik olan Azərbaycan rəqs havalarının quruluşundakı çoxlu sayda ayrı-ayrı tərkibli ritmik formulların (şəkillərin) yaranma səbəbləri, onların dəyişmə formaları geniş şəkildə analiz edilmiş və bu müxtəlif quruluşların yaranmasında musiqi nitqinin vacib elementlərindən sayılan “vəzn” (metr), “ölçü”, “ritm” və “temp” kimi anlayışların müstəsna rolu işıqlandırılmışdır.

Çoxəsrlik tarixə bağlı, müxtəlif ölçüyə, ritmə və tempə malik olan yallı rəqslərinin yaranması, növləri və oyun qaydaları haqqında maraqlı faktlar açıqlayan bu tədqiqat işində hələ heç bir mənbədə adı çəkilməyən “Naxçıvan”, “Paşa köçdü” (“Cüt ayaq” da adlanır), “Tərs yallı” (“Qarabağı” da adlanır), “Qalaça”, “Dizdən qırma” (ikinci adı “Ağır yallı”), “Papılı”, “Oravan”, “Dəhnə” (“El yallısı” kimi də adlanır), “Daşbulağı”, “Altı qızlar”, “Dərviş baba”, “Dal Dağıstanı”, “Ulu yurd”, “Qayabaşı”,

“Qaraçuxa” (ikinci adı “Zağalı”), “Yeqara”, “Qara Pir”, “Gülü basma” (“Məmmədbağırı” da adlanır), “Məzrə” (ikinci adı “Çubuqlu yallı”) yallı havaları, “Şamaxı”, “Tapp elədi”, “Şərur”, “Bəsti”, “Qaryağdı”, “Kim-kimə”, “Təhməzi”, “Balışı”, “Taciri”, “Şamama”, “Üç barmaq”, “Zümrüdü” rəqsləri haqqında məlumat verilir.

Təqdim olunmuş dissertasiya işində Azərbaycan xalq rəqslərinin təsnifatı ilə bağlı mövzuya da yer ayrılmışdır. Məlumdur ki, bu günə kimi bir çox görkəmli musiqişünas-alimlərimiz rəqs havalarının müxtəlif istiqamətlərdə təsnifatını vermişlər.Belə ki, Bayram Hüseynli rəqsləri onların mövzüsuna görə altı növə bölmüşdür; ənənəvi rəqslər, zəhmət rəqsləri, məişət rəqsləri, qəhrəmani rəqslər, yallı oyun-rəqsləri və müxtəlif mövzulu rəqslər. Məmmədsaleh İsmayılov rəqs havalarını ritmik xüsusiyyətləri baxımından dörd növdə göstərmişdir; ağır-mülayim, yüngül-oynaq, qaytağı tipli cəld və iti rəqslər. Əhməd İsazadə yallı havalarını altı növə ayırmışdır; lirik, qəhrəmani, epik, məzəli, məişət rəqsləri və idman mövzulu rəqslər. Təqdim olunmuş dissertasiya işində isə rəqs havalarının təsnifatı səkkiz bölmədən ibarətdir; yer və tarixi ərazilərin adları ilə bağlı rəqslər, bitki və gül-çiçək adları ilə bağlı rəqslər, daş-qaş, zinət və bəzək əşyalarının adları ilə bağlı rəqslər, əmək və təsərrüfatla bağlı məişət rəqsləri, qəhrəmanlıq və igidlik timsallı rəqslər, bayramlar və el şənlikləri ilə bağlı mərasim rəqsləri, insan adları ilə bağlı rəqslər, məzəli rəqslər. Yeni təsnifatın yaranmasına səbəb 1983-cü ildən bu günə kimi apardığımız tədqiqat nəticəsində müxtəlif ada, melodik məzmuna malik olan 350-ə yaxın qədim rəqs havalarının əldə olunması ilə bağlıdır. Belə ki, 80-dən çox yer və müxtəlif tarixi ərazilərin adını , 40-a yaxın bitki və gül-çiçək adlarını, 50-dən çox insan adını, 15-dən çox bahalı daş-qaş və bəzək əşyalarının adlarını, eləcə də, əməklə, məişətlə və s. bağlı müxtəlif adları daşıyan rəqs nümunələrini ayrı-ayrı bölmələrdə toplamaqla yeni təsnifat tərtib edilmişdir. Onu da qeyd etməliyik ki, burada göstərilmiş bölmələrin bəzilərinin adı yuxarıda qeyd etdiyimiz digər təsnifatlardan götürülmüşdür. Məsələn, “məişət rəqsləri”, “qəhrəmani rəqslər” həm B.Hüseynlinin, həm də Ə.İsazadənin verdiyi təsnifatlarda göstərilmişdir. Yeni təsnifatda həmin adlar cüzi dəyişərək (“əmək və təsərrüfatla bağlı <u>məişət</u> rəqsləri” və “<u>qəhrəmanlıq</u> və igidlik timsallı rəqslər”) saxlanılmışdır. Ə.İsazadənin verdiyi təsnifatdakı “<u>məzəli rəqslər</u>” termini yeni təsnifatda da olduğu kimi işlədilmişdir.

Rəqs havalarının təsnifatına aid bölməsində iki və daha artıq ada malik olan rəqslər haqqında da məlumat açıqlanmışdır. Belə ki, bir çox oyun havalarımıza öz qədim adından başqa müxtəlif dövrlərdə, müəyyən tarixi

hadisələrlə bağlı digər adlar da verilmişdir. Məsələn, "Şağani"–"Şampanı", "Mirvari"–"Çatdadım", "Tapp elədi"–"Sürüşdüm-düşdüm", "Şəki"–"Nuxa", "Yaylıq"–"Qoçəli", "Onluq"–"Süleymanı", "Mixəyi"–"Ciran-ciran", "Asta Qarabağı"–"Vağzalı", "Balabəyi"–"Nilufəri", "Qorxmazı"–"Solmazı", "Ekspress"–"Muştuluq", "Fayton"–"Gorusu", "Fason"–"Alışdım-yandım", "Kiri-kiri"–"Abşeron", "Nərgizi"–"Vüqarı", "Turşəngi"–"Azərbaycan qızı", "Xan yaylağı"–"Qax" iki adlı rəqslər, "Festivalı"–"Gümrü", "Delasoru"–"Buğda", "Dəhnə"–"El yallısı", "İstibulaq"–"Qayış tutdu", "Yelliсə"–"Novruzu", "Gülü basma"–"Məmmədbağırı", "Çöp-çöpü"–"Nehrəmi", "Dırqoyu"–"Qaleyi", "Poppuri"–"Dəlilo", "Çınqı-çınqı"–"Xərəc", "Tirmə şal"–"Arzumanı", "İrəvan"–"Dördayaq", "Şərur"–"Ovçular", "Qaraçuxa"–"Zağalı", "Hərbə-zorba"–"Üz-üzə", "Paşa köçdü"–"Cüt ayaq", "Çilgəz"–"İki dəstə" və s. iki ada malik yallı havalarıdır.

Təsnifatla bağlı bölmədə bu günə kimi tanıdığımız və aparılan tədqiqat nəticəsində yeni əldə etdiyimiz rəqəmlərlə adlandırılmış rəqslər haqqında, bu adların yaranma səbəbləri barədə tarixi faktlar işıqlandırılmışdır.

Tədqiqat işində Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətləri baxımından muğam dəstgahlarında, bəstəkarların yaradıcılığında və kino musiqisindəki rolundan danışılır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında digər folklor janrları kimi rəqs musiqisi də böyük əhəmiyyət kəsb edir. Çünki rəqs melodiyalarının musiqi məzmunu, xüsusilə də ritmik ahəngi əsərdə müxtəlif obrazların xarakterinin açılmasına, musiqi dili ilə çatdırılmasına, dərk olunmasına xidmət edir. Kino sənətində kadrların göstərə bilmədiyi insanın daxili duyğuları, sevgisi, qisas hissi, hədsiz sevinci və s. rəqs musiqisinin dili ilə aydınlaşır. İki sevən gəncin məhəbbətini göstərə bilən lirik rəqslərin, müharibə səhnələrindəki cəngi havalarının, el bayramlarında yallıların, toy səhnələrində səsləndirilən oynaq, iti templi rəqslərin yaradılacaq əsərlərdə cox böyük rolu vardır. Bu qeyd olunanlar tədqiqat işinin **aktuallığını** bir daha vurğulayır.

**Mövzunun işlənmə dərəcəsi.** Təqdim olunmuş tədqiqat işi yazılarkən bir çox arxeoloji, tarixi, ədəbi, etnoqrafik mənbələrə, Azərbaycan xalq rəqslərinin öyrənilməsində böyük xidmətləri olan bir çox musiqişünas-alimlərin tədqiqat əsərlərinə, eləcə də rəqs melodiyalarının not yazılarını əks etdirən müxtəlif məcmuələrə istinad edilmişdir. Araşdırma aparılarkən etnomusiqişünaslıq elminin müxtəlif istiqamətlərini öyrənən bir çox xarici, rus musiqişünas-bəstəkarların da tədqiqat metodları analiz edilmişdir. Belə ki, Avropa folklor tədqiqatçılarından Bela Bartok (1881-1945), Adnan Sayqun (1907-1991), rus tədqiqatçılarından Vladimir Propp (1895-1970), Yevgeniy

Gippius (1903-1985), Boris Putilov (1919-1997), Boris Asafyev (1884-1949), Kliment Kvitka (1880-1953), İzaliy Zemtsovski, Viktor Belyayev (1888-1968) və başqalarının folklor araşdırmaları mühüm əhəmiyyət kəsb edir. Müxtəlif xalqların musiqi folklorunu tədqiq edən, onların oxşar və fərqli xüsusiyyətlərini araşdıran, eləcə də, tədqiqat işinin düzgün qurulmasını proqramlaşdıran bu tədqiqatçıların elmi metodları gələcəkdə bütün dünya xalqlarının musiqi irsinin öyrənilməsində geniş istifadə olunmuşdur.

Azərbaycanda da xalq musiqisinin toplanması və öyrənilməsilə məşğul olan bəstəkar və musiqişünaslarımızın hamısı yuxarıda adları çəkilən tədqiqatçıların elmi-praktiki metodlarından bəhrələnmişlər. Azərbaycanda ilk folklor tədqiqatları dahi bəstəkarımız Üzeyir Hacıbəyli və Müslüm Maqomayevlə başlanmış, sonralar isə Q.Qarayev, F.Əmirov, C.Hacıyev, Z.Bağırov, T.Quliyev, R.Hacıyev, S.Hacıbəyov, S.Rüstəmov, Q.Hüseynli, M.İsmayılov, Ə.Bədəlbəyli, Ə.İsazadə, B.Hüseynli, T.Kərimova, S.Abdullayeva, H.Adıgözəlzadə, Z.Abdullayeva, F.Xalıqzadə, Ə.Ələkbərova, E.Dadaşova və başqaları tərəfindən davam etdirilmişdir. Onların əsərlərində Azərbaycan xalq rəqslərinin müxtəlif istiqamətləri (yaranma tarixi, etimologiyası, təsnifatı, lad-məqam xüsusiyyətləri, metro-ritmik cəhətləri və s.) araşdırılmış, tədqiq olunmuşdur. Məsələn, 1937-ci ildə nəşr edilmiş "Azərbaycan rəqs havaları" məcmuəsində Səid Rüstəmov 30 xalq rəqsinin not yazısını vermişdir.[1] Məcmuənin müqəddiməsini görkəmli rus folklor tədqiqatçısı, musiqişünas Vladimir Belyayev (1888-1968) yazmış, rəqslərin ritmik və lad-məqam xüsusiyyətlərinə toxunmuşdur.

1957-ci ildə çap olunmuş "Azərbaycan xalq melodiyaları"[2] adlı məcmuədə Soltan Hacıbəyovun Şəki, Qax və Zaqatala rayonlarından topladığı rəqs havalarının not yazıları işıqlandırılmışdır.

Azərbaycanın istedadlı qarmon ifaçılarından olmuş Məmmədağa Ağayevin bəstələdiyi on rəqs havasını görkəmli bəstəkarımız Tofiq Quliyev fortepiano üçün işləyərək nota yazmışdır. Onu da qeyd etməliyik ki, M.Ağayev ixtisasca energetika mühəndisi olsa da, musiqiyə dərindən bələd olan, öz ifası ilə xalqın rəğbətini qazanan, radio və televiziya ilə tez-tez çıxışlar edən sənətkarlardan olmuşdur. "10 rəqs" adlanan məcmuə 1960-cı ildə Azərbaycan Dövlət Musiqi nəşriyyatında çapdan çıxmışdır.[3]

---

[1] Rüstəmov S.Ə. Azərbaycan rəqs havaları. Bakı, Azərnəşr, 1937.
[2] Azərbaycan xalq melodiyaları. Not yazısı Sultan Hacıbəyovun. Bakı, Azərnəşr, 1957.
[3] 10 rəqs. Melodiyaları Məmmədağa Ağayevindir. Fortepiano üçün işləyəni T.Quliyev. Bakı, Azərb.Döv.Mus.Nəşriyyatı, 1960.

Bayram Hüseynlinin 1965-ci ildə nəşr edilmiş "Azərbaycan xalq rəqs melodiyaları" adlı 1-ci dəftərində "yallı" rəqsi haqqında geniş məlumat açıqlanmış, 25 yallı musiqisinin not yazısı çap olunmuş, onların metr-ritm xüsusiyyətləri təhlil edilmişdir.[4] "Azərbaycan xalq musiqisinin janr təsnifatı" adlı digər əsərində musiqişünas rəqs havalarının məzmununa görə təsnifatını vermişdir.[5] B.Hüseynli "Azərbaycan instrumental xalq rəqs musiqisi" adlı əsərində oyun havalarının lad-məqam xüsusiyyətlərini geniş təhlil etmiş, onların ritmik xüsusiyyətlərini araşdırmışdır.[6]

Azərbaycan xalq rəqslərinin təsnifatı ilə bağlı 1984-cü ildə nəşr olunmuş "Azərbaycan xalq musiqisinin janrları" əsərində Məmmədsaleh İsmayılov oyun havalarını ritmik xüsusiyyətlərinə görə təsnifata ayırmışdır.[7]

Uzun müddət xalq musiqisinin öyrənilməsi ilə məşğul olmuş musiqişünas-alim Əhməd İsazadənin "Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən",[8] "Musiqi folkloru"[9] əsərlərində xalq rəqslərimizin qədim tarixi, onların toplanması və tədqiq olunması kimi məsələlər işıqlandırılmışdır. Bundan əlavə onun N.Məmmədovla birlikdə 1975-ci ildə nəşr etdirdikləri "Xalq mahnıları və oyun havaları"[10] məcmuəsində 20 rəqsin, 1984-cü ildə çap olunmuş "Azərbaycan xalq mahnıları və oyun havaları"[11] məcmuəsində isə 24 yallı və 16 oyun havasının not yazıları verilmişdir. Onu da qeyd etməliyik ki, bu məcmuədə Ə.İsazadə yallı havalarının yeni təsnifatını təqdim etmişdir.

1983-cü ildə Kamal Həsənovun "Qədim Azərbaycan xalq rəqsləri" monoqrafiyasında bir çox oyun havalarımız, onların yaranma və inkişaf tarixi, adlarının mənası və s. haqqında geniş nəzəri məlumatlar açıqlanmışdır.[12]

Azərbaycan instrumental ifaçılıq sənətində xüsusi yeri olan, Şirvan bölgəsində nəfəs alətlərinin (zurna və balaban) çox mahir ifaçılarından

---

[4] Hüseynli B.X. Azərbaycan xalq rəqs melodiyaları. Bakı, Azərnəşr, 1965.

[5] Hüseynli B.X. Azərbaycan xalq musiqisinin janr təsnifatı. "Azərbaycan İncəsənəti" məcmuəsi. XIIc. Bakı, 1968. (Azərb. EA-nın nəşri)

[6] Hüseynli B.X. Azərbaycan instrumental xalq rəqs musiqisi. "Azərbaycan xalq musiqisi" məcm. Bakı, Elm, 1981, s.168-197

[7] İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Bakı, İşıq, 1984.

[8] İsazadə Ə.İ. Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən. "Azərbaycan xalq musiqisi" məcm. Bakı, Elm, 1981, s.5-27

[9] İsazadə Ə.İ. Musiqi folkloru. Bakı, Elm, 1992.

[10] İsazadə Ə.İ., Məmmədov N.H. Xalq mahnıları və oyun havaları. Bakı, Elm, 1975, s.79-96

[11] İsazadə Ə.İ., Məmmədov N.H. Azərbaycan xalq mahnıları və oyun havaları. Bakı, Elm, 1984, s.33-73

[12] Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri.Bakı, İşıq, 1983.

sayılan Əli Kərimovun həyat və yaradıcılığından bəhs edənkitab 1984-cü ildə Moskbada "Əli Kərimov" ("Али Керимов")adı ilə çap olunmuşdur. Bayram Hüseynli və Tahirə Kərimovanın birgə zəhməti sayəsində ərsəyə gələn kitabda ustad sənətkarın öz bəstələdiyi 26 rəqs havası haqqında məlumat verilmiş, onlardan 12-nin not yazısı işıq üzü görmüşdür.[13]

Əli Kərimovun ifasından iki rəqs melodiyasını ("Sünbülü" və "Yarış") ilk dəfə Rauf Hacıyev fortepiano üçün işləyərək 1954-cü ildə "Müasir Azərbaycan xalq rəqsləri" adı ilə nəşr etdirmişdir.[14]

1986-cı ildə Moskvada "Azərbaycan xalq musiqisinin ritmikası" (Ритмика Азербайджанской народной музыки)adlı dissertasiyasını Moskvada müdafiə etmiş və sənətşünaslıq namizədi alimlik dərəcəsinə layiq görülmüş musiqişünas Fəttah Xalıqzadə xalq musiqi janrlarını ritmik xüsusiyyətləri baxımdan təhlil etmişdir.[15]

1990-cı ildə Moskvada nəşr edilmiş "Azərbaycan instrumental musiqisi" (Азербайджанская инструментальная музыка)[16] adlı məcmuədə musiqişünas Səadət Abdullayevanın müxtəlif illərdə Azərbaycanın bir çox bölgələrindən topladığı oyun havalarının not yazıları işıqlandırılmışdır. Musiqişünas rəqs havalarının lad-məqam, eləcə də ritm xüsusiyyətlərini təhlil etmişdir.

R.Zöhrabovun Azərbaycan klassik muğamları, zərb-muğamları haqqında yazdığı monumental əsər Azərbaycanın musiqi mədəniyyətinə bir töhfədir. Bu dissertasiya işində isə rəqs havalarının muğam dəstgahlarının quruluşundakı mahiyyəti işıqlandırılmış, uzun illər aparılmış tədqiqat nəticəsində toplanan yeni rəqs melodiyaları gələcəkdə muğam dəstgahlarında istifadə edilməsi üçün təqdim olunmuşdur.

Azərbaycan folklor musiqisinin ritmik xüsusiyyətlərindən bəhs edən Fuad Əzimlinin "Azərbaycan musiqi folklorunun bəzi ritmik xüsusiyyətləri və onların zərbi müşayiəti" əsəri 1992-ci ildə nəşr olunmuşdur.[17] Müəllif 1994-cü ildə "Zərb alətləri və onların xalq musiqi irsində rolu" adlı dissertasiya işi yazmışdır ki, bu da folklor musiqi ritmikasının öyrənilməsində qiymətli əsərlərdəndir.

---

[13] Гусейнли Б.Х., Керимова Т.М. Али Керимов. М., Сов.Композитор, 1984.

[14] Müasir Azərbaycan xalq rəqsləri. (Əli Kərimovun çalğısından nota salanı və f-no üçün işləyəni R.Hacıyev). Bakı,Azərb.Döv.Mus.Nəşriyyatı, 1954.

[15] Халыкзаде Ф.Х. Ритмика Азербайджанской народной музыки. (дис. канд. искусств.) М., 1986.

[16] Азербайджанская инструментальная музыка. Москва, Музыка, 1990.

[17] Əzimli F.N. Azərbaycan musiqi folklorunun bəzi ritmik xüsusiyyətləri və onların zərbi müşayiəti. I bur. Bakı, 1992.

2001-ci ildə Ədalət Kərimlinin çap etdirdiyi "Şərur yallısı" kitabında yallının vətəni sayılan Şərurda fəaliyyət göstərən yallı kollektivləri haqqında, eləcə də, burada oynanılan ən məşhur yallı havaları haqqında məlumat verilmişdir.[18]

2009-cu ildə Azərbaycan ifaçılıq sənətində tanınmış musiqiçilərdən biri olan Teyyub Dəmirovun öz bəstələrindən ibarət məcmuə "Adiloğlu" nəşriyyatında çapdan çıxmışdır. Qeyd etmək lazımdır ki, məcmuədə toplanmış dəramıd və rəqs melodiyaları ilk dəfə R.Rüstəmov tərəfindən fortepiano üçün işlənərək nota alınmış və 1961-ci ildə Azərbaycan Musiqi nəşriyyatında "Rənglər və rəqslər" adı ilə nəşr edilmişdir. Məcmuədə müəllifin ifasından yazılmış 26 melodiya öz əksini tapmışdır.[19]

2011-ci ildə professor Malik Quliyevin və Arzu Quliyevanın tərtibatı ilə istedadlı qarmon ifaçısı Aydın Əliyevin ifasından toplanmış rəqs havaları "Azərbaycan xalq rəqs musiqisi" adı ilə çap edilmişdir. Məcmuədə 60 rəqs musiqisinin not yazısı işıqlandırılmışdır.[20]

Xalq rəqslərimizlə bağlı 2011-ci ildə daha bir məcmuə işıq üzü görmüşdür. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 90 illiyinə həsr olunan "Azərbaycan xalq rəqsləri" adlı məcmuə Fərhad Bədəlbəyli, Oqtay Rəcəbov, Gülnaz Abdullazadə və Natiq Mustafayevin tərtibatı ilə "Mütərcim" nəşriyyatında çapdan çıxmışdır. Məcmuədə fortepiano üçün işlənmiş 62 rəqs havasının not yazısı işıqlandırılmışdır.[21]

2013-cü ildə Leyla Zöhrabovanın "Azərbaycan xalq rəqslərinin lad-məqam xüsusiyyətləri" adlı əsərində qədim xalq rəqslərimiz öz musiqi məzmununa görə, lad-məqam xüsusiyyətləri baxımından təhlil edilmişdir.[22]

Naxçıvanda çox tanınmış ifaçılardan sayılan tarzən Əkrəm Məmmədlinin Kənan Məmmədli ilə birlikdə ərsəyə gətirdikləri "Naxçıvan–Şərur el yallıları" məcmuəsi 2015-ci ildə Naxçıvanda nəşr edilmişdir. Burada 92 yallının not yazısı verilmişdir. Məcmuədə Şərur yallıları ilə yanaşı Türkiyənin Ərzu-

---

[18] Məmmədov Ə.K. Şərur yallısı. Bakı, Şirvannəşr, 2001.
[19] Dəmirov T.M. Milli rəqslər və dəramədlər. Bakı, Adiloğlu, 2009.
[20] Azərbaycan xalq rəqs musiqisi. Nota köçürən və tərtib edənlər: A.Quliyeva və M.Quliyev. Bakı, MBM, 2011
[21] Azərbaycan xalq rəqsləri. (Fortepiano üçün işləmələr). Tərtib edənlər: F.Bədəlbəyli, O.Rəcəbov, G.Abdullazadə, N.Mustafayev. Bakı, Mütərcim, 2011.
[22] Zöhrabova L.R. Azərbaycan xalq rəqslərinin lad-məqam xüsusiyyətləri. Bakı, Mars Print, 2013.

rum, İqdır bölgələrindən də toplanmış yallılar öz əksini tapmışdır.[23]

Azərbaycan xalq rəqslərimizin rəngarəng musiqi dilinin milli lad nəzəriyyəsi səviyyəsində təhlilini vermiş görkəmli bəstəkar, musiqişünas-alim Elnarə Dadaşova özünün 2016-cı ildə nəşr edilmiş "Azərbaycan xalq oyun havalarında melodik yönəlmə və modulyasiya məsələləri" adlı əsərində rəqslərin forma quruluşu, musiqi dilinin lad-məqam xüsusiyyətləri, melodikanın inkişaf üsullarını geniş şəkildə araşdırmışdır.[24]

Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətlərinin öyrənilməsində yuxarıda adları çəkilən mənbələrdəki məlumatların çox böyük əhəmiyyəti olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində xalq rəqslərimizin musiqisində istifadə edilən, lakin ilk dəfə öz düzgün milli adları ilə ifadə olunan "yallı", "ardıcıl", "atlama", "qaytağı", "tərs" və "qazağı" Azərbaycan ritmləri, onların quruluş tərkibini təşkil edən müxtəlif ritmik formullar, eləcə də bu formulların yaranma səbəbləri, dəyişmə prinsipləri əhatəli şəkildə araşdırılmış, mükəmməl faktlarla təhlil olunmuşdur.

Azərbaycan xalq rəqslərinin toplanması və öyrənilməsində uzun illər (34 il) aparılmış tədqiqat nəticəsində əldə etdiyimiz 350-ə yaxın qədim xalq rəqs nümunələri də bu dissertasiya işində istifadə edilmişdir.

Bu günə qədər əldə etdiyimiz faktları da əlavə etməklə rəqs sənətinin ibtidai forması sayılan "yallı"nın tarixi, etimologiyası, inkişafı haqqında, eləcə də, oyun qaydaları və ritmik xüsusiyyətləri barədə geniş məlumat açıqlanmışdır. Xüsusilə qeyd etməliyik ki, bu tədqiqat işində bizə məlum olan yallılarla yanaşı artıq yaddaşlardan silinməkdə olan "Qaraçuxa" (ikinci adı "Zağalı"), "Ala gülbəngi", "Qalaça", "Dizdən qırma" ("Ağır yallı" da adlanır), "Qəmlo", "Ağbaba", "Qara Pir", "Ağbulaq", "Şərur" (ikinci adı "Ovçular"), "Məzrə" (ikinci adı "Çubuqlu yallı"), "Yeqara", "Hərbə-zorba" (ikinci adı "Üz-üzə"), "Şəranı", "Göyçə", "Tərs yallı" ("Qarabağı" da adlanır), "Ververi", "Çəçələ barmaq", "İstibulaq" (ikinci adı "Qayış tutdu"), "Gülü basma" ("Məmmədbağırı" da adlanır), "Yellicə" ("Novruzu" da adlanır), "Hacı Nəzər", "Ordubad", "Papılı" və başqa yallı havaları haqqında da məlumat verilmişdir. Onu da qeyd etməliyik ki, 167 melodiyadan ibarət bu yallılar ilk dəfə bizim tərəfimizdən toplanmış, notlaşdırılmış və çap edilmişdir.

---

[23] Məmmədli Ə.M. və Məmmədli K.Ə. Naxçıvan-Şərur el yallıları. Naxçıvan, Əcəmi Nəşriyyatı Poliqrafiya Birliyi, 2015.

[24] Dadaşova E.R. Azərbaycan xalq oyun havalarında melodik yönəlmə və modulyasiya məsələləri. Bakı, ADPU-nun mətbəəsi, 2016.

Tədqiqat işində müxtəlif elmi mənbələrdən, çap olunmuş məcmuələrdən əldə edilmiş rəqs musiqi nümunələri ilə yanaşı 1983-cü ildən bu günə kimi topladığımız zəngin musiqi materialları əsasında xalq rəqslərimizin mövzusu, məzmunu, xarakteri, adlarının mənası və ritmi baxımından tamamilə yeni səpgidə dolğun təsnifatı verilmişdir. Yeni təsnifat bu günə kimi bizə məlum olan, Bayram Hüseynli, Məmmədsaleh İsmayılov, Əhməd İsazadə, Kamal Həsənov, Əqidə Ələkbərova kimi görkəmli musiqişünas-alimlərimizin verdiyi təsnifatlara əsaslanaraq və rəqs nümunələrinin say çoxluğu, mövzu müxtəlifliyi ilə əlaqədar daha da genişləndirilərək tərtib edilmişdir.

Dissertasiya işində ilk dəfə olaraq Azərbaycan xalq rəqslərinin klassik muğamlarımızın quruluşunda (şöbə və güşələr arasında) "dəraməd", "rəng", "diringi" və "təsnif" kimi istifadə olunması haqqında əhatəli şəkildə informasiya açıqlanmışdır. Belə ki, oyun havalarından seçilmiş "rəng"lərin ritmik xasiyyəti baxımından həm "dəraməd", həm də "diringi" kimi işlənməsi, eləcə də, musiqisinə mətn (söz) əlavə olunmuş rəqslərin mahnıya çevrilərək "təsnif" kimi ifa olunma prinsipləri dərindən araşdırılmışdır. Onu da qeyd etməliyik ki, bu gün çoxlu sayda rəqs havası muğam dəstgahlarının quruluşunda "rəng", "dəraməd", "diringi", hətta mətn əlavə olunmaqla mahnıya çevrilərək "təsnif" kimi tanınmış, rəqs olduğu unudulmuşdur. Bu tədqiqat əsəri ilə tanış olan, xanəndəni müşayiət edən musiqi ifaçılarımız rəqsləri öz adları ilə tanımaqla yanaşı, ifa etdikləri "dəraməd"in, "rəng"in, "diringi"nin və ya "təsnif"in əslində rəqs havası olduğunu biləcəklər.

Azərbaycan professional musiqisində, bəstəkar yaradıcılığında xalq rəqslərinin mühüm əhəmiyyət kəsb etməsi tədqiqat işində geniş işıqlandırılmışdır. Oyun havalarının musiqi məzmunundakı, xüsusilə də, ritmindəki müxtəlifliyi əsərin yazılışında hər hansı bir obrazın xarakterinin açılmasına göstərdiyi təsir təhlil olunmuşdur.

Dissertasiyanın sonuncu bölməsində Azərbaycan xalq rəqslərinin kino musiqisindəki rolu və əhəmiyyəti barədə geniş məlumat açıqlanmışdır. Bu sırada qədim oyun havalarımızla yanaşı həm də müasir rəqs melodiyalarının adları da göstərilmişdir. Bu baxımdan Azərbaycan filmlərini, kino musiqisini təhlil edən musiqişünaslara qeyd olunan kino-filmlərdə səsləndirilən rəqs havalarını tanıması üçün tədqiqat işinin müəyyən köməyi olacaqdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin **məqsədi** Azərbaycan xalq rəqs musiqisində ritmin əhəmiyyətini, rəqslərin səslənməsində ritmik rəngarəngliyin əldə olunması prinsiplərini açıqlamaq, oyun havalarının müşayiətində istifadə olunan Azərbaycan ritmlərinin elmi əsasda tanınması, onların adlarının musiqi aləmində öz elmi təsdiqini tapması və bu

ritmləri yaradan quruluş formullarının öyrənilməsidir. Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətlərinin öyrənilməsində çox vacib sayılan istər oyun havalarının təsnifatı ilə bağlı, istərsə də, bu havaların bəstəkar yaradıcılığında, muğamların quruluşunda və kino musiqisində əhəmiyyətli rol oynamasına aid bölmələr gələcəkdə bu folklor janrını araşdıran digər tədqiqatçılar üçün çox dəyərli mənbə ola bilər.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələr** irəli sürülmüşdür;

1. Oyun havalarının müşayiəti zamanı ifa olunan Azərbaycan ritmlərinin tanınması (öz elmi adları ilə),öyrənilməsi;
2. Rəqs musiqisinin quruluşunda istifadə edilən ritmik şəkillərin müxtəlif dəyişmə formalarının mənimsənilməsi;
3. Yeni əldə olunmuş və bu günə kimi heç bir mənbədə adları çəkilməyən qədim xalq rəqslərimizin (not yazıları ilə) öyrənilməsi;
4. Xalq rəqslərinin bu tədqiqat işində təqdim olunmuş yeni təsnifata əsasən qruplaşdırılması;
5. Muğam ifaçılığında qədim xalq rəqslərimizin (xüsusilə, az tanınan) "rəng", "dəraməd", "diringi" və "təsnif" kimi ifa edilməsi;
6. Bəstəkarlıq yaradıcılığında oyun havalarının geniş istifadə olunması;
7. Azərbaycan kino musiqisində xalq rəqslərimizin səsləndirilməsi.

**Tədqiqatın metodu və metodoloji əsasları.** Dissertasiya işinin yazılmasında bir çox elmi metodlar əsas götürülmüşdür. Belə ki, tarixi və nəzəri əsaslara söykənərək rəqs musiqi nümunələrinin toplanması, notlaşdırılması, müqayisəli şəkildə təhlil olunması kimi metodlardan istifadə olunmuşdur. Təcrübə göstərir ki, hər hansı bir tarixi ərazidən əldə olunan musiqi materialı əvvəlcə lentlərə yazılır, onun yaranma tarixi, eləcə də adının mənası haqqında məlumat öyrənilir, sonra musiqi yazısı notlaşdırılır, oxşar variantlarla müqayisə olunur və ümumi kataloqa daxil edilir.

Tədqiqat prosesində folklor musiqişünaslığında qəbul olunmuş ümumi qaydalardan, metodologiyalardan (sintez, təhlil, arxiv sənədlərinin öyrənilməsi və s.) istifadə edilmişdir. Bu istiqamətdə xalq rəqslərimiz haqqında çox sanballı əsərlər yazmış Ü.Hacıbəyli, M.Maqomayev, Ə.Bədəlbəyli, B.Hüseynli, M.İsmayılov, Ə.İsazadə, S.Abdullayeva, F.Xalıqzadə, E.Dadaşova, Ə.Ələkbərova və bir çox musiqişünas-alimlərimizin təcrübəsinə müraciət olunmuş, onların iş üsulu, metodologiyası öyrənilmişdir.

Bununla yanaşı xarici ölkələrin tədqiqatçılarından Bela Bartok, Adnan Sayqun, rus tədqiqatçılarından Vladimir Propp, Yevgeniy Gippius, Boris

Putilov, Boris Asafyev, Kliment Kvitka, İzaliy Zemtsovski, Viktor Belyayev və b. metodlarına istinad olunmuşdur.

**Faktiki material.** Tədqiqat işinin ilkin mərhələsi, əsasən, Azərbaycan xalq rəqsləri haqqında bu vaxta kimi toplanmış və yazılmış materialların, eləcə də əldə olunmuş not yazı nümunələrinin öyrənilməsi ilə başlanmışdır. Bu məlumatlar rəqs melodiyalarının yazıldığı maqnitofon lentlərindən və ya qrammofon vallarından, müxtəlif illərdə oyun havaları haqqında nəşr olunmuş məcmuələrdən və bir çox tanınmış bəstəkar-musiqişünaslarımızın tədqiqat əsərlərindən əldə edilmişdir.

Növbəti mərhələ isə Azərbaycanın müxtəlif bölgələrinə edilən səfərlərlə (ekspedisiyalar) bağlıdır. Kəlbəcər, Laçın, Qubadlı, Kürdəmir, Şəki, Gəncə, Quba, Qusar, Naxçıvan, Şərur, Ordubad, Şahbuz, Şirvan və başqa bölgələrdə görüşdüyümüz qocaman, ustad sənətkarlardan, tanınmış musiqiçilərdən, rəqqaslardan 250-dən çox rəqs, 90 adda yallı musiqisi toplanmış, onlar haqqında çox qiymətli tarixi məlumatlar əldə olunmuşdur. Belə sənətkarlardan zurna və balabanın mahir ifaçıları Həsrət Hüseynov (Kürdəmir), İzzətəli Zülfüqarov (Qobustan), Bəhruz Zeynalov (Bakı), Nağı Maqsudov (Şərur), Rza Qurbanov (Şahbuz), Hacı Abutalıbov (Ordubad), Ağamirzə Mərdiyev, Laçın Bayramov, Ağasəf Musayev, Mübariz İsmayılov, İlham İbrahimxəlilov (Şəki), Musa Bayramov, Ələddin Tağıyev, Qəşəm İsmayılov (əslən İrəvan mahalından), Sədir Güyəndikov (əslən Kəlbəcər rayonundan), Fərman Seyidov (Qobustan rayonundan), Zahir Zülfüqarov (Bakı), Bəybala Abdulov (İsmayıllı), Sifayəddin Balayev (Quba), qarmon ifaçıları Əsgərəli Əsgərəliyev, Şakir Nəcəfov (əslən Ağdam rayonundan), Zahir Maqsudov (Şərur), Vaqif Rəhimov (Şirvan), Eldar Əliyev (Bakı), rəqqas Böyükağa Məmmədov, rəqqasə Əminə Dilbazi (Bakı) və başqalarının adlarını çəkə bilərik. Onu da qeyd etməliyik ki, toplanmış oyun havalarından 150-sinin not yazısı, eləcə də onlar haqqında tarixi məlumatlar 2002-ci ildə "Adiloğlu" nəşriyyatında "Azərbaycan xalq rəqsləri" adlı məcmuədə nəşr edilmişdir.[25]

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətlərinin öyrənilməsi, araşdırılması baxımından təqdim olunmuş dissertasiya işi nəzəri cəhətdən çox əhəmiyyətlidir. Xüsusilə qeyd etməliyik ki, tədqiqat işində bu günə kimi təcrübədə işlədilib, lakin nəzəri cəhətdən öz elmi təsdiqini tapmamış "yallı", "ardıcıl", "atlama", "qaytağı", "tərs" və "qazağı" adlanan Azərbaycan ritmlərinə verilən bu milli adların çox düzgün seçildiyi sübuta yetirilmiş, həqiqi elmi-nəzəri mənasını tapmışdır.

---

[25] Bəhmənli R.B. Azərbaycan xalq rəqsləri. Bakı, Adiloğlu, 2002.

Bu dissertasiya işindən gələcəkdə musiqişünaslıq, etnoqrafiya, folklorşünaslıq, xoreoqrafiya, həmçinin mədəniyyət və incəsənətin digər sahələrində fəaliyyət göstərən tədqiqatçılar elmi mənbə kimi faydalana bilərlər.

Tədqiqat işi aşağıda göstərilən istiqamətlərdə praktiki əhəmiyyətə malikdir;

1. Xalq rəqslərinin müşayiətində ifa olunan Azərbaycan ritmlərinin, onların adlarının və quruluş tərkibinin zərb alətlərinin dərs vəsaitinə daxil edilərək tədris olunması;

2. Oyun havaları haqqında tədqiqat işi aparan musiqişünasların heç bir mənbədə adı çəkilməmiş xalq rəqslərinin həm not yazısından, həm də onlar haqqında verilmiş tarixi məlumatdan bəhrələnməsi;

3. Rəqs melodiyalarını toplayan tədqiqatçının bu havaları bizim təqdim etdiyimiz yeni təsnifata əsasən qruplaşdırması;

4. Xanəndəni müşayiət edən instrumental ifaçıların ilk dəfə burada adları çəkilən xalq rəqslərini muğam dəstgahlarının tərkibində dəraməd, rəng, diringi kimi istifadə etməsi;

5. İstedadlı xanəndələrin hələ tanınmamış rəqslərə mətn əlavə edərək muğamın şöbələri arasında təsnif (mahnı) kimi ifa etməsi.

**Tədqiqatın predmeti və obyekti:** Etnomusiqişünaslığın mühüm bir sahəsi sayılan xalq musiqi folklorunun çox geniş qollarından olan xalq rəqslərində milli ritmlərin və ritmik xüsusiyyətlərin mövcudluğu və özünəməxsusluğu dissertasiyanın **obyektini** istiqamətləndirir. Azərbaycan milli rəqs ritmikasının həm tarixi, həm də nəzəri cəhətdən araşdırılması dissertasiyanın tədqiqat **predmetini** təşkil edir.

**Tədqiqatın aprobasiyası:**Dissertasiya Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları və nəticələri müəllifin respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslardakı çıxışlarında, çap olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu:** Dissertasiya iki hissədə təqdim edilmişdir. I hissə − girişdən, üç fəsildən, səkkiz bölümdən, nəticədən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. II hissədə isə Azərbaycan xalq rəqslərinin not yazıları əks olunmuş, bu rəqslərin sənədləşdirilməsi və mündəricatı işıqlandırılmışdır.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın I hissəsinin **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılaraq, tədqiqatın elmi işlənməsi, elmi yeniliyi şərh edilir, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası göstərilərək, təcrübi əhəmiyyəti qeyd olunur.

Dissertasiyanın **I fəsli – "Azərbaycan xalq rəqslərinin yaranması və inkişafı tarixinə bir nəzər"** adlanır. Birinci fəsil üç bölmədən ibarətdir. **1.1. "Bölgələrdə aparılan ekspedisiya və xalq rəqslərinin toplanması"** adlanır. Azərbaycan xalqı çox zəngin musiqi folkloruna malikdir. Aşıq musiqisi, xalq mahnıları, muğam sənəti və rəqs havaları kimi qədim tarixə malik olan janrlar onun tərkib hissəsinə daxildir. Adları çəkilən janrlar xalq musiqimizin əsasını təşkil edir. Hər bir azərbaycanlı musiqiçi bu janrları öyrənməli, dərindən mənimsəməlidir. Çünki, bu el havalarında xalqımızın əsl mənada surəti, əksi musiqi dili ilə təsvir olunur. Azərbaycan xalq çalğı alətlərində (tar, kamança, zurna, balaban və s.) ifa edən musiqiçilər üçün bu folklor janrları çox qiymətli xəzinədir.

Xalq musiqimizin dərin və ən maraqlı sahələrindən biri rəqs yaradıcılığıdır. Bu sənət bir-biri ilə sıx əlaqədə olan iki məktəbi özündə birləşdirir. Onlardan biri rəqsi oynamağı öyrədən, oyun zamanı istifadə olunan rəqs hərəkətlərini, texnikasını açıqlayan və ümumiyyətlə, rəqsin incəliklərini tədris edən xoreoqrafiya məktəbi, digəri isə musiqi alətlərində çalmağı öyrədən, yüksək səviyyəli musiqi təhsili verən ifaçılıq məktəbləridir.

Bu bölmədə 1983-ü ildən başlayaraq Azərbaycanın Kəlbəcər, Laçın, Qubadlı, Kürdəmir, Şəki, Gəncə, Quba, Qusar, Naxçıvan, Şərur, Ordubad, Şahbuz, Şirvan və b. bölgələrə səfərlərdən, bir çox ustad sənətkarlarla, mahir ifaçılarla görüşlərdən və onların ifasından əldə olunmuş qədim xalq havalarından bəhs olunur. Qeyd etməliyik ki, bu görüşlərdən topladığımız qədim oyun havalarının çoxu artıq yaddaşlardan silinməkdə olan melodiyalardaır. Belə ki, "Ciki-ciki", "Çoban kolu", "Ərdəbili", "Fayton" (ikinci adı "Gorusu"), "İncə gülü", "İyirmi nömrə", "Lağ-lağı", "Moruğu", "Mübaydə", "Nar çiçəyi", "Nazəndə", "Nişan üzüyü", "Püstə xanım", "Otuz iki", "Sarı çiçək", "Qodu-qodu", "Sona xanım", "Təkəli" ("Tellayı" da adlanır), "Şahzadə", "Xan yaylağı" (ikinci adı "Qax"), "Zoğalı" və s. rəqs melodiyaları ilk dəfə notlaşdırılmışdır.

**1.2. "Yallı – rəqs sənətinin ilkin forması kimi"** adlanan ikinci bölmədə rəqsin ibtidai forması sayılan "yallı"nın qədim tarixini təsdiqləyən bir çox faktlar göstərilmiş, təməli ibtidai insanlar tərəfindən qoyularaq ritm mü-

şayiətilə oynanılan bu ayin rəqslərinin müxtəlif mifik inanclara bağlılığı açıqlanmış, Azərbaycanın Qobustan ərazisində və Gəmiqaya dağında aşkar edilmiş yallı gedən qədim insan şəkilləri haqqında dolğun məlumat verilmişdir. Daha sonra yallının növləri, oyun qaydaları və ifa üsulları geniş şəkildə təhlil olunmuşdur. Dissertasiya işində bu günə kimi yallı rəqslərinin araşdırılması sahəsində böyük xidmətləri olan Bayram Hüseynli, Məmmədsaleh İsmayılov, Əhməd İsazadə, Əqidə Ələkbərova kimi görkəmli musiqişünas-alimlərin tədqiqatları dərindən öyrənilmiş və onlara istinad olunmuşdur. Yallı havalarının bu alimlər tərəfindən müxtəlif istiqamətlərdə (təsnifatı, lad-məqam və ritmik xüsusiyyətləri) apardıqları tədqiqatlar təqdim etdiyimiz dissertasiya işinin yazılmasında mühüm əhəmiyyəti olmuşdur.

Yallılar öz quruluşuna və musiqi məzmununa görə bir, iki və üç hissəli olduğundan bu hissələrin hər biri müxtəlif ölçüdə və tempdə ifa olunur. Bu baxımdan yallıların müşayiətində istifadə olunan ritmlərin müxtəlif templərdə dəyişik ifaları not nümunələri ilə birlikdə təqdim edilmişdir. Bundan əlavə "yallı"nı müşayiət edən alətlər, eləcə də müxtəlif tərkibli ansambllar haqqında da məlumatlar açıqlanmışdır. I fəslin üçüncü bölməsi **1.3. "Azərbaycan xalq rəqslərinin təsnifatı"** adlanır.Bu bölmədə bu günə kimi topladığımız, eləcə də digər mənbələrdən (nəşr olunmuş məcmuələr, maqnitofon lentləri, audio və video yazıları) əldəetdiyimiz rəqs havaları yeni təsnifatda tərtib olunmuşdur. Təsnifat xalq rəqslərimizin mövzusuna, xarakterinə, yarandığı tarixi əraziyə, metro-ritmik xüsusiyyətlərinə və adlarının mənasına görə qruplaşdırılmışdır. Təqdim olunmuş təsnifat səkkiz bölmədən ibarətdir; yer və tarixi ərazilərin adları ilə bağlı rəqslər, bitki və gül-çiçək adları ilə bağlı rəqslər, daş-qaş, zinət və bəzək əşyalarının adları ilə bağlı rəqslər, əmək və təsərrüfatla bağlı məişət rəqsləri, qəhrəmanlıq və igidlik timsallı rəqslər, bayramlar və el şənlikləri ilə bağlı mərasim rəqsləri, insan adları ilə bağlı rəqslər, məzəli rəqslər. Təsnifatla bağlı bu bölmədə iki və daha çox ada malik olan oyun havaları, bu adların verilmə səbəbləri haqqında, eləcə də, rəqəmlərlə adlandırılmış rəqslər barədə çox maraqlı faktlar açılmışdır.

Yeni təsnifatın tərtib edilməsi fikri 1983-cü ildən bu günə kimi apardığımız tədqiqat nəticəsində müxtəlif ada, melodik məzmuna, ölçüyə, tempə və ritmə malik olan 350-ə yaxın qədim rəqs havalarının əldə edilməsindən sonra yarandı. Belə ki, 80-dən çox yer və müxtəlif tarixi ərazilərin adında, 40-a yaxın bitki və gül-çiçək adında, 50-dən çox insan adında, 15-dən çox bahalı daş-qaş və bəzək əşyalarının adında və s. rəqs nümunələrinin ayrı-ayrı bölmələrdə toplanması, çeşidlənməsi məqsədilə yeni təsnifatın yaranmasına tələbat yaranmışdır. Onu da qeyd etməliyik ki, burada göstərilmiş

bölmələrin bəzilərinin adı bu günə qədər yazılmış, bizə tanış olan təsnifatlardan götürülmüşdür. Məsələn, "məişət rəqsləri", "qəhrəmani rəqslər" həm B.Hüseynlinin, həm də Ə.İsazadənin verdiyi təsnifatlarda göstərilmişdir. Yeni təsnifatda həmin adlar cüzi dəyişərək ("əmək və təsərrüfatla bağlı məişət rəqsləri" və "qəhrəmanlıq və igidlik timsallı rəqslər") saxlanılmışdır. Ə.İsazadənin verdiyi təsnifatdakı "məzəli rəqslər" termini yeni təsnifatda da olduğu kimi işlədilmişdir.

Tədqiqat işinin **II fəsli – "Azərbaycan xalq rəqslərinin ritmik quruluşu"** adlanır. Bu fəsil iki bölmədən ibarətdir. **2.1. "Rəqs musiqisində istifadə olunan Azərbaycan ritmləri"** adlanan birinci bölmədə Azərbaycan xalq musiqisinə məxsus, onun milli ritmləri haqqında ətraflı məlumat verilmişdir. Hər bir xalqın öz musiqi ritmləri olduğu kimi Azərbaycan xalq musiqisinin də özünəməxsus ritmləri mövcuddur. Uzun illər aparılan araşdırma nəticəsində altı adda milli ritmimiz Azərbaycan xalq musiqisindəki mövcudluğunu və vacibliyini təsdiq etmişdir. Bunlar; "ardıcıl", "yallı", "atlama", "qaytağı", "qazağı" və "tərs" ritmlərdir.

Tədqiqat nəticəsində oyun havalarında istifadə edilən, onların müşayiəti üçün zəruri sayılan Azərbaycan xalq ritmlərinin təhlili, adlarının elmi təsdiqi, yaranması, eləcə də quruluşu haqqında çox dolğun məlumatlar əldə olunmuşdur. Burada "yallı", "qaytağı" və "qazağı" kimi tanınmış ritmlərlə yanaşı heç bir mənbədə yazılmamış, lakin təcrübədə çox geniş istifadə olunan "ardıcıl ritm", "atlama ritm" və "tərs ritm" kimi adlara da rast gəlirik. Bu ritmlərin adları onların tərkibindəki ritmik şəkillərin düzülüşünə, ölçü çərçivəsində güclü və zəif təqtilərin yerdəyişməsinə, eləcə də bu təqtilərin arasındakı uzunluq dərəcələrinə əsasən verilmişdir. **2.2. "Ritmik formulların yaranma səbəbləri"** adlanan ikinci bölmədə yuxarıda adları çəkilən Azərbaycan ritmlərinin quruluş tərkibindəki müxtəlif, formulların yaranma səbəbləri, onların dəyişmə üsulları, saysız ritmik şəkillərə çevrilməsi bütün musiqi qanunlarına uyğun araşdırılmışdır. Rəngarəng ritmik quruluşların yaranmasında vəznlərin xanə daxili qruplaşması, aksentli metr təqtinin zəif metr təqtisinə keçməsindən əmələ gələn sinkopanın, "triol", "kvartol" və s. kimi şərti işarələrin istifadə olunması kimi ifadə üsullarının əhəmiyyəti tutarlı dəlillərlə təhlil olunmuşdur. Rəqs melodiyalarının tərkibindəki ritmik quruluşların müəyyən oxşar xüsusiyyətləri araşdırılaraq "təkrar" və "variantlıq" haqqında da məlumat verilmişdir. Təqdim olunan faktlar rəqs melodiyalarının not yazıları ilə təsdiqlənərək göstərilmişdir.

Azərbaycan xalq rəqslərində ritmindigər vacib xüsusiyyətlərinin açılması üçün dissertasiyada **III fəsil** də yazılmışdır. Bu fəsil **"Azərbaycan**

**professional musiqisində xalq rəqslərinin təzahür formaları"** adlanır. III fəsil üç bölmədən ibarətdir. **3.1. "Azərbaycan muğamlarında xalq rəqslərinin rolu"** adlanan birinci bölmədə oyun havalarının klassik muğam dəstgahlarının quruluşunda mövqeyi və mahiyyəti açıqlanır. Bölmənin başlanğıcında Azərbaycan muğamları haqqında, onların İslam dini musiqisi ilə yaxınlığı və əlaqəsi barədə məlumatlar verilmişdir. Bu bölmədə əsasən, xalq rəqslərimizin muğam dəstgahlarının tərkibində rolu və istifadə formaları çox geniş şəkildə təhlil edilmişdir. Açıqlanmışdır ki, oyun havaları muğamın şöbə və guşələri arasında "dəraməd", "rəng", "diringi" və hətta "təsnif" kimi geniş istifadə edilir. Onu da qeyd etməliyik ki, muğam dəstgahlarının quruluşunda adları çəkilən musiqi janrlarının hər birinin öz mahiyyəti, özünəməxsus xarakteri, həcmi və ritmik xüsusiyyətləri vardır. Belə ki, rəqs "dəraməd" və "rəng" kimi çalınarkən nisbətən ağır və ya orta tempdə, "diringi" kimi ifa edildikdə isə tez və iti templərdə səslənir. Aparılan tədqiqat nəticəsində hansı rəqslərin dəraməd, rəng və diringi kimi ifa edilməsi müəyyənləşdirilmiş, eləcə də sonradan mətn (şeir) əlavə olunmaqla bu gün artıq xalq mahnısı və ya təsnif kimi tanınan oyun havaları aşkar edilmişdir. Məlum olmuşdur ki, "Ənzəli", "Şəlalə", "Reyhanı", "Səlami", "Dərvişi", "Gül dəstəsi", "Həngamə-mey" rəqs musiqisi dəraməd kimi, "Aşxabadı", "Narınc", "Novruzu", "Çervon", "Balabəyi", "Mərcanı", "Mixəyi" ("Ciran-ciran" kimi də adlanır), "Bəxtəvəri" oyun havaları rəng kimi, "Taciri", "Kəndiri", "Məxməri", "Almazı" rəqsləri isə diringi kimi ifa olunur. Mahnı kimi oxunaraq məşhurlaşan və həmin mahnının adını qəbul edərək tanınan bir çox oyun havalarının əslində rəqs olması və ilk dəfə rəqs melodiyası kimi yaranması müəyyənləşdirilmişdir. Belə rəqs havalarından "Şuşa", "Dağıstan", "İnnabı", "Gülgəzi", "Kəsmə" və başqalarının adları qeyd olunmuşdur. **3.2. "Rəqs janrı – Azərbaycan bəstəkarlarının yaradıcılığında"** adlanan ikinci bölmədə xalq rəqslərinin bəstəkar yaradıcılığına verdiyi töhfələrdən danışılır. Bölmənin əvvəlində folklor və onun janrları haqqında, Etnomusiqişünaslıq elmi və onun yaranma tarixi haqqında məlumat verilmiş, dünya xalqlarının musiqi irsini tədqiq edən görkəmli musiqişünas-alimlərin tədqiqat metodlarından bəhs olunmuşdur. Oyun havalarının professional musiqi yaradıcılığında geniş istifadə olunması haqqında ətraflı məlumat verən bu bölmə Azərbaycan bəstəkarlarının yazdıqları dünyaşöhrətli əsərlərdə xalq rəqslərimizin çox vacib, lazımlı bir janr olduğunu bir daha təsdiqləyir. Məlum edilmişdir ki, hər hansı bir əsərdə bəstəkar xalqın sevinc hisslərini, şadlığını, bayram əhval-ruhiyyəsini, toy şənliyini, düşmən üzərində çaldığı qələbəni, məhz rəqs musiqisilə, yallı havaları ilə göstərə

bilmişdir. Ü.Hacıbəyli, M.Maqomayev, Q.Qarayev, C.Hacıyev, S.Hacıbəyov, Ə.Bədəlbəyli və başqa bəstəkarların yaradıcılığında rəqs musiqisinin bu əvəzolunmaz keyfiyyətləri öz təsdiqini tapır. **III fəslin** sonuncu bölməsi **3.3. "Azərbaycan xalq rəqslərinin kino musiqisində əhəmiyyəti"** adlanır. Bu bölmədə kino-filmlərdə səslənən rəqs havalarının istər melodiyasının, istərsə də ritminin kadrlarda təsvir olunan səhnələrin gedişatına, obrazların xarakterinin açılmasına göstərdiyi emosional təsir gücü təhlil edilmişdir. Müxtəlif filmlərdə rəqs musiqisi və onun ritminin oxşar və fərqli tərəflərini açmaq üçün iki filmi nümunə kimi təhlil etmişik. Üzeyir Hacıbəylinin "Arşın mal alan" və "O olmasın bu olsun" musiqili komediyaları əsasında ekranlaşdırılmış filmlərdə səsləndirilən xalq rəqslərimizin xoreoqrafiya ilə əlaqəsi və xoreoqrafik hərəkətlərin yaranmasında onun musiqisinin və ritminin əhəmiyyəti, eləcə də yallı və cəngi rəqslərinin kinoda və onu izləyən tamaşaçıda yüksək mənəvi hislərin yaratması qeyd edilmişdir.

Bu bölmədə Azərbaycan kinosunun yaranma tarixi haqqında məlumat verilmiş, eləcə də oyun havalarının istifadə olunduğu kino-filmlərin və bu filmlərdəki rəqslərin adları çəkilmişdir.

Tədqiqat işinin I hissəsi **nəticə** bölməsi ilə yekunlaşır. Burada uzun illər toplanan və araşdırılan Azərbaycan xalq rəqslərinin qədim tarixi, ritmik xüsusiyyətləri, xoreoqrafik oyun qaydaları haqqında əldə edilmiş nəticələr işıqlandırılmışdır. Məlum olmuşdur ki, Azərbaycan xalq musiqisinin müşayiətində altı adda ("ardıcıl", "yallı", "atlama", "qaytağı", "qazağı" və "tərs") milli ritmimiz mövcuddur və bu ritmlərin quruluş formullarının müxtəlif üsullarla dəyişməsi, artması rəqslərin də musiqi dilinin zənginləşməsinə təsir göstərmişdir.

Yallı rəqslərinin qədim tarixini təsdiq edən faktlar, onun dini inanclara bağlılığı, hətta bu gün oynanılarkən qədim adət-ənənələri özündə əks etdirməsi onun, ümumiyyətlə, rəqs sənətinin ibtidai forması olduğunu sübuta yetirmişdir.

Bu günə kimi toplanmış 350-ə yaxın müxtəlif mövzuya, xarakterə, ada və melodiyaya malik olan rəqs havalarının yeni tərtibatda təsnifatı da tədqiqat işinin səmərəli nəticələrindən sayılır. Təsnifatla bağlı, iki və daha çox ada malik olan rəqslər, eləcə də rəqəmlərlə adlandırılmış oyun havaları haqqında da ilk dəfə dolğun məlumat açıqlanmışdır.

Dissertasiyada Muğam dəstgahlarının quruluşunda "dəraməd", "rəng", "diringi" və hətta melodiyasına mətn (şeir) əlavə edilərək "təsnif" kimi ifa olunan rəqs havaları haqqında da ilk dəfə məlumat verilmişdir. Məlum olmuşdur ki, bir çox belə rəqslər zaman keçdikcə öz adını itirmiş, ifa olunduğu muğamın "rəng"ləri və ya təsnifi kimi tanınmışdır.

Oyun havalarının istər melodik dili, istərsə də ritmi səhnədə müxtəlif hadisələrin, ifa edilən obrazların xarakterinin açılmasında mühüm rol oynadığı üçün rəqslər hər zaman bəstəkarların müraciət etdiyi janr olmuşdur. Rəqsin bu keyfiyyətləri kino-filmlərdə də istifadə olunur.

Dissertasiyanın II hissəsi **"Azərbaycan xalq rəqslərinin not yazıları"** adlanır. Burada 87 oyun havasının not yazısı işıqlandırılmışdır. Həmin rəqslər I hissədə adları çəkilən, eləcə də, nümunə kimi göstərilmişoyun havalarıdır. II hissədə not yazılarından sonra əlavə edilmiş **"Azərbaycan xalq rəqslərinin sənədləşdirilməsi"** adlı bölmədə 87 rəqsin hər biri haqqında qısa məlumat verilmiş, yazıldığı il və səsləndirən ifaçının adı və soyadı qeyd olunmuşdur.

**Dissertasiyanın elmi nəticələri müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**

**Məcmuələr:**

1. Bəhmənli R.B. Azərbaycan xalq rəqsləri. Bakı, Adiloğlu, 2002, 157s.
2. Bəhmənli R.B. Azərbaycan yallıları. Bakı, Mütərcim, 2018, 137 s.

**Məqalələr:**

1. Azərbaycan xalq rəqslərinin inkişafı tarixindən. / "Aspirantların və gənc tədqiqatçıların IX Respublika elmi konfransının materialları II". Bakı, 2003, s.231
2. Şəki bölgəsinə elmi ekspedisiya. (Həmmüəllif Gülnaz Abdullazadə) // "Musiqi dünyası" 4 bur. Bakı, 2005, s.321-323
3. Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətləri. // "Musiqi dünyası" N 2, Bakı, 2006, s.182-185
4. Azərbaycan folklorunda "Yallı" və "Şalaxo" rəqslərinin yaranma və inkişaf tarixi. // "Konservatoriya" 19 bur, №2. Bakı, 2013, s.106-110
5. Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətləri. // "Müasir mədəniyyətşünaslıq" 16 bur, №2. Bakı, 2014, s.35-43
6. Azərbaycan muğamlarında xalq rəqslərinin rolu. (National Dances role in Azerbaijanian Mugam). / "IX İnternational Turkic culture, art and protection of cultural heritage symposium/art activity". Verona-İtaly, 2015.
7. Azərbaycan xalq rəqslərinin təsnifatı. // Rast Müzikoloji Dergisi, cilt 5, sayı 3, Tokat–Türkiye, 2017, s.1745-1757.
8. Azərbaycan xalq rəqslərinin kino musiqisində əhəmiyyəti. // http://harmony.musigi-dunya.az/RUS/reader.asp?txtid=765&s=1; Bakı, 2018
9. Yallı – dans sanatının ilkin şekli olarak. // İV. Uluslararasi Müzik Ve Dans Kongresi 19-20-21 Ekim 2018 / Bodrum. www.imdcongress.com

**Рауф Бахрам оглы Бахманли**

# РИТМИЧЕСКИЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ТАНЦЕВ

## Резюме

Диссертационная работа состоит из двух частей. Первая часть состоит из введения, трех глав, восьми разделов, заключения, а также из списка использованной литературы. А во второй части отражаются нотные тексты азербайджанских народных танцев, а также освещаются оформление и содержание этих танцев.

В диссертации представлены народные танцы, которые ни в каком научном источнике не упомянуты. В данной исследовательской работе, раскрываются интересные факты возникновения разновидностей жанра, а также правила исполнения танцев яллы, обладающими различными размерами, множеством ритмических структур и темпами, что глубоко уходит корнями в многовековую музыкальную культуру Азербайджана. Одновременно, историко-морфологическая методология исследования строится на основе историко-сравнительного анализа: исторический фон танцев, этнокультурная идентичность, историческое образование и эволюционные процессы танцев.

**I глава** диссертации – называется **«Из истории возникновения и развития азербайджанских народных танцев»**. Первая глава состоит из трех разделов: **1.1. «Региональная экспедиция и сбор народных танцев»; 1.2. «Яллы – как первичная форма искусства танца»; 1.3. «Классификация азербайджанских народных танцев».**

**II глава** диссертации – называется **«Ритмическая структура азербайджанских народных танцев».** Эта глава состоит из двух разделов: **2.1. «Азербайджанские ритмы, использованные в танцевальной музыке»; 2.2. «Причины возникновения ритмических формул».**

**III глава** диссертации состоит из трех разделов: **3.1. «Роль народных танцев в азербайджанских мугамах»; 3.2. «Танец – в творчестве азербайджанских композиторов»; 3.3. «Значимость азербайджанских народных танцев в музыке кинофильмов».**

В **заключении** даются выводы и обобщения проведенного исследования.

**Rauf Bahram Bahmanli**

## RHYTHMICAL PECULIARITIES OF THE NATIONAL DANCES OF AZERBAIJAN

### Summary

Thesis work consists of two parts. The first part consists of the introduction, three chapters, eight sections, conclusion, as well as, list of the used literature. Second part covers note texts of the national dances of Azerbaijan, as well as, the formation and content of this dances are examined.

The thesis covers the national dances which are not stated in scientific source. In this research work, there are interesting facts of formation of the variation of the genre, as well as, the rules of the performance of "Yalli" dance, possessing the several proportions, richness of the rhythmical structures and temps which deeply go to the stems of multi centuries of the musical culture of Azerbaijan.

At the same time, historical morphological methodology of the research consists of the basis of the historical comparative analysis: historical background of the dances, ethnic cultural identity, historical education and evolution processes of the dances.

**I chapter** of the thesis is called **"History of formation and development of the national dances of Azerbaijan"**. First chapter consists of three sections: **1.1. "Regional expedition and collection of the national dances"; 1.2. "Yalli-as the initial form of the dance art"; 1.3. "Classification of the national dances of Azerbaijan"**.

**II chapter** of the thesis is called **"Rhythmical structure of the national dances of Azerbaijan"**. This chapter consists of two sections: **2.1. "Azerbaijanian rhythms, used in dance music"**; **2.2. Reasons of the formation of the rhythmical formulas"**.

**III chapter** consists of three sections: **3.1. "Role of the national dances in Azerbaijanian mughams"; 3.2. "Dance -in the creativity of Azerbaijanian composers"; 3.3. "Significance of the national dances of Azerbaijan in musical movies".**

**In conclusion**, there are ideas and summaries of the conducted research.

Çapa imzalanıb: 20.09.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**РАУФ БАХРАМ оглы БАХМАНЛИ**

# РИТМИЧЕСКИЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ТАНЦЕВ

**6213.01 – Музыкальное искусство**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание учёной степени доктора философии по искусствоведению**

**Баку – 2018**